**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 061/381

**Bakı şəhəri** “24” sentyabr **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Tunis Respublikasının Tunis (Tunis) vilayətində və Fələstin Dövlətinin Beytləhm (Bethlehem) əyalətində **dabaq**, Norveç Krallığının Roqaland (Rogaland) inzibati ərazi vahidində və Danimarka Krallığının Şimali Yutlandiya (Nordjylland) regionunda **Nyukasl**, Nepal Federativ Demokratik Respublikasının Karnali (Karnali), Baqmati (Bagmati) əyalətlərində, Seneqal Respublikasının Ties (Thiès) regionunda, Albaniya Respublikasının Korça (Korçë), Fier (Fier) vilayətlərində, Boliviya Çoxmillətli Dövlətinin Koçabamba (Cochabamba) inzibati ərazi vahidində, Çili Respublikasının Libertador Qeneral Bernardo O'Hiqqins (Libertador General Bernardo O'Higgins) regionunda, İsveçrə Konfederasiyasının Sürix (Zürich) inzibati ərazi vahidində, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Nyu-Meksiko (New Mexico) və Ayova (Iowa) ştatlarında isə qeydə alınmış **yüksək patogen quş qripi** xəstəlikləri aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi” nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.2. Dabaq xəstəliyi üzrə:**

1.2.1. 2022-ci il 1 fevral tarixli 009/184 nömrəli qərarla Tunis Respublikasının Tunis vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.2. 2023-cü il 21 fevral tarixli 008/259 nömrəli qərarla Fələstin Dövlətinin Beytləhm əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**1.3. Nyukasl xəstəliyi üzrə:**

1.3.1. 2022-ci il 11 oktyabr tarixli 057/232 nömrəli qərarla Norveç Krallığının Roqaland inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

1.3.2. 2023-cü il 25 iyun tarixli 029/280 nömrəli qərarla Danimarka Krallığının Şimali Yutlandiya regionuna tətbiq edilmiş məhdudiyyət.

**1.4. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

1.4.1. 2021-ci il 9 aprel tarixli 022/117 nömrəli qərarla Nepal Federativ Demokratik Respublikasının Karnali və Baqmati əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

1.4.2. 2022-ci il 11 fevral tarixli 011/186 nömrəli qərarla Seneqal Respublikasının Ties regionuna tətbiq edilmiş məhdudiyyət;

1.4.3. 2022-ci il 30 mart tarixli 021/196 nömrəli qərarla Albaniya Respublikasının Korça və Fier vilayətlərinə tətbiq edilmiş məhdudiyyət;

1.4.4. 2023-cü il 6 fevral tarixli 005/256 nömrəli qərarla Boliviya Çoxmillətli Dövlətinin Koçabamba inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

1.4.5. 2023-cü il 17 mart tarixli 012/263 nömrəli qərarla Çili Respublikasının Libertador Qeneral Bernardo O'Hiqqins regionuna tətbiq edilmiş məhdudiyyət;

1.4.6. 2023-cü il 27 mart tarixli 014/265 nömrəli qərarla İsveçrə Konfederasiyasının Sürix inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

1.4.7. 2024-cü il 22 aprel tarixli 029/349 nömrəli qərarla ABŞ-ın Nyu-Meksiko ştatına tətbiq edilmiş məhdudiyyət;

1.4.8. 2024-cü il 20 iyun tarixli 037/357 nömrəli qərarla ABŞ-ın Ayova ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi

Chief Veterinary Officer